# ANTİTERROR ŞƏHİDLƏRİ - VƏTƏNİ BÜTÖV EDƏNLƏR

## ABDULLAYEV ASİM CAVANŞİR OĞLU



Şəhid kiçik çavuş Asim Cavanşir oğlu Abdullayev 10 dekabr 1982-ci ildə Tovuz rayonunun Vahidli kəndində anadan olmuşdur. Orta təhsilini Asif Sadıqov adına Tovuz rayon Vahidli kənd tam orta məktəbində almışdır. Orta məktəbdən məzun olduqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tovuz rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində hərbi xidmətinə başlamışdır. Asim bir müddət hərbi xidmət etdikdən sonra ordudan tərxis olunmuş və mülki fəaliyyətinə davam etmişdir. Sonra isə Müddətdən Artıq Həqiqi Hərbi Xidmət kurslarına yazılmış, kursları müvəffəqiyyətlə bitirdikdən sonra Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu kimi yenidən ordu sıralarına qayıtmışdır. Hərbi xidmət müddətində döyüş hazırlığında, eləcə də qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlərə görə dəfələrlə hərbi hissə rəhbərliyi tərəfindən fəxri fərman və təşəkkürnamələrlə təltif edilmişdir. Həmçinin Asim Abdullayev "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə də təltif edilmişdir. İgidimiz 12 oktyabr 2022-ci ildə ailə həyatı qurmuşdu.

Təəssüflər olsun ki, mənfur erməni qəsbkarları Asimin gələcəklə bağlı planlarını və arzularını ürəyində qoymuşdur. Qarabağda ermənilərin dəfələrlə etdikləri təxribat rəşadətli Azərbaycan Ordusunun lokal xarakterli antiterror tədbirləri həyata keçirməsi ilə nəticələnmişdir. Uğurlu əməliyyatlarda iştirak edən Asim Abdullayev böyük rəşadət göstərərək fərqlənmişdir. O, 19 sentyabr 2023-cü ildə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhid kiçik çavuş Asim Abdullayevin nəşi doğulduğu Tovuz rayonunun Vahidli kəndində torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Asim Abdullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## ABUŞOV HABİL QULAM OĞLU



Şəhid əsgər Habil Qulam oğlu Abuşov 28 iyun 2004-cü ildə Neftçala rayonunun Qazaxbərəsi kəndində anadan olmuşdur. 2010-cu ildə Neftçala rayon Qazaxbərəsi kənd ümumi orta məktəbinin birinci sinfinə qədəm qoymuşdur. 2019-cu ildə həmin məktəbin 9-cu sinfini bitirmiş, sonrakı illərdə ailəsinə təsərrüfat işlərində kömək etmişdir. 6 iyul 2022-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Neftçala rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlamışdır. Əvvəlcə, Gəncə şəhərində hərbi xidmət etmişdir. Habil Qusar rayonunda yerləşən hərbi hissələrdən birində qardaş Türkiyə hərbçiləri tərəfindən təşkil edilmiş Komando təlimində üç ay kurs keçərək sertifikat almış, öz hərbi hazırlığını daha da möhkəmləndirmişdir. Sonra Xocavənd rayonunun Nərgiztəpə ərazisində yerləşən "N" saylı hərbi hissədə hərbi xidmətini davam etdirmişdir. 2023-cü ilin mart-aprel aylarında Xocavənd rayonunun Hadrut qəsəbəsində hərbi xidmət edən Habil may ayında yenidən Xocavənd rayonunun Nərgiztəpə ərazisində yerləşən hərbi hissəyə qayıtmışdır.

19 sentyabr 2023-cü ildə Qarabağda separatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı rəşadətli Azərbaycan Ordusu tərəfindən başlanan lokal xarakterli antiterror tədbirlərində Habil Abuşov da iştirak etmiş, böyük igidlik və şücaət nümayiş etdirmişdir. Əsgər Habil Abuşov 20 sentyabr 2023-cü ildə Xocavənd istiqamətində yaralı döyüş yoldaşını xilas edərkən qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Qəhrəmanımızın nəşi doğulduğu Neftçala rayonunun Qazaxbərəsi kəndində torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Habil Abuşov. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## AĞAXANOV OSMAN QƏDİM OĞLU



Şəhid əsgər Osman Qədim oğlu Ağaxanov 5 aprel 2004-cü ildə Xaçmaz rayonunun Ukuroba kəndində anadan olmuşdur. Orta təhsilini Xaçmaz rayon Ukuroba kənd tam orta məktəbində aldıqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xaçmaz rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir. Hərbi xidmətini böyük bacarıqla və müvəffəqiyyətlə yerinə yetirən Osman Ağaxanov Quru Qoşunlarının Komando Briqadasının hərbçisi idi.

19 sentyabr 2023-cü ildə Qarabağda silahlanan və separatçı fəaliyyət göstərən təxribatçı erməni qəsbkarlarına qarşı rəşadətli Azərbaycan Ordusu tərəfindən başlanan lokal xarakterli antiterror tədbirlərində Osman Ağaxanov da iştirak etmişdir. O, Xocavənd istiqamətində gedən döyüşlərdə böyük igidlik və şücaət nümayiş etdirmişdir. Əsgər Osman Ağaxanov 20 sentyabr 2023-cü ildə Xocavənd istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Onun nəşi 22 sentyabr 2023-cü ildə doğulduğu Xaçmaz rayonunun Ukuroba kəndində torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Osman Ağaxanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## AĞAYEV CEYHUN ETİBAR OĞLU



Şəhid əsgər Ceyhun Etibar oğlu Ağayev 29 aprel 1987-ci ildə Salyan rayonunun Şorsulu kəndində anadan olmuşdur. Orta təhsilini aldıqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Salyan rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir. Hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki fəaliyyət göstərmişdir. Sonra isə Müddətdən Artıq Həqiqi Hərbi Xidmət kurslarına yazılmışdır. Kursları müvəffəqiyyətlə bitirən Ceyhun Ağayev «N» saylı hərbi hissədə Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu kimi xidmət edərək yenidən ordu sıralarına qayıtmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Ceyhun Ağayev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Müharibə gedişatında baş verən bir çox hərbi əməliyyatlarda iştirak etmiş, şücaətlə döyüşərək fərqlənmişdir.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Ceyhun Ağayev "Cəsur döyüşçü" medalı ilə təltif edilmişdir.

Vətən müharibəsindən sonra Ceyhun Ağayev hərbi xidmətinə davam etmişdir.

Ceyhun Ağayev 19 sentyabr 2023-cü ildə Qarabağda silahlanan erməni separatçılarına qarşı rəşadətli Azərbaycan Ordusu tərəfindən başlanan lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Uğurlu döyüşlər zamanı böyük igidlik göstərmişdir. Əsgər Ceyhun Ağayev 19 sentyabr 2023-cü ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Ceyhun Ağayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

*(Davamı var)*

**SEVİNDİK NƏSİBOĞLU**
*11-ci sinif şagirdi, şair-publisist, AJB üzvü*



***(İstifadə edilmiş mənbələr: oxu.az, report.az, qafqazinfo.az, unudulmazlar.az)***